MahadSunnah

هيثم سرحان

# صفة الصلاة

# Namaz qılmağın qaydası

Azərbaycan dili

اللغة الأذرية


**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

**Əziz Dostlar! Uca Allaha şükürlərimizdən biri də Ona ən sevimli əməllərlə ibadət etməyimizdir. Bu da namazdır**

Uca Allah buyurur:

قال تعالى: ﴿حَٰفِظُواْ عَلَى ٱلصَّلَوَٰتِ وَٱلصَّلَوٰةِ ٱلۡوُسۡطَىٰ وَقُومُواْ لِلَّهِ قَٰنِتِينَ ٢٣٨﴾ [البَقَرَة : ٢٣٨]

“Namazları və (günortadan sonrakı) orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun.”[1]

Əziz Dostlarım! Bəs siz namaz qılmağı bilirsinizmi?

Namaza başlamazdan əvvəl bir neçə şeyə hazırlaşmalıyıq.

- Belə ki:

- ✓ Dəstəmaz alırıq.
- ✓ Təmiz paltar geyinirik.
- ✓ Təmiz yerdə dururuq.
- ✓ Üzü qibləyə yönəlirik.
- ✓ Qəlbimizdə namaz qılmağa niyyət edirik.

- Sonra əllərimizi qulağımıza qədər qaldırıb təkbir gətirərək “Allahu Əkbər” deyirik.

[1] Əl Bəqərə surəsi 238

- Sonra sağ əlimizi sol əlimizin üstünə qoyuruq və ilk öncə Fatihə surəsini, sonra Qurandan hər hansı bir surəni oxuyuruq.

- Sonra ruku edib: “Allahu Əkbər” deyirik və rükuda üç dəfə: “Subhənə rabbiyəl Azim!” deyirik.

- Sonra “Səmiallahu limən həmidəh, Rabbənə və ləkəlHəmd” deyərək rukudan qalxırıq.

- Sonra: “Allahu Əkbər” deyərək səcdə edirik və səcdədə üç dəfə “Subhənə rabbiyəl Əla!” deyirik.

- Sonra təkbir gətirərək düz otururuq və üç dəfə “Rabbiğfirli” deyirik.

- Sonra ikinci dəfə təkbir gətirərək səcdədə üç dəfə “Subhənə rabbiyəl Əla!” deyirik.

- Sonra ikinci rükətə qalxırıq və birinci rükətdə etdiyimizi tam yerinə yetiririk, lakin ikinci səcdədən sonra oturub təşəhhüd duasını bitirənə qədər oxuyuruq.

- Sonra sağa dönüb “Əssələmu aleykum və rəhmətullah” deyərək salam veririk və sonra yenidən sola dönüb “Əssələmu aleykum və rəhmətullah” deyirik.

- Əgər namaz məğrib namazı kimi üç rükətdirsə, birinci təşəhhüddən sonra üçüncü rükətə qalxırıq. Orada yalnız Fatihə surəsini oxuyuruq.

- Sonra ruku edib səcdə edib axırıncı təşəhhüdə otururuq.

- Əgər namaz İşa namazı kimi dörd rükət olarsa, dördüncü rükətə qalxırıq.

-Sonda isə oturub təşəhhüdü tam şəkildə oxuyuruq.

- Sonra sağ tərəfimizə salam verib: "Əssələmu aleykum və rəhmətullah" və sol tərəfimizə salam verib "Əssələmu aleykum və rəhmətullah" deyirik.

Beləliklə biz Allah üçün olan namazı doğru şəkildə yerinə yetirmiş olduq.

Allah bizdən və sizdən qəbul etsin!